# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ TERRORLA MÜBARİZƏSİ

***(əvvəli 26, 27 və 28 iyul tarixli saylarımızda)***

Bəzi müəlliflər ən son erməni-azərbaycanlı münaqişə kampaniyasının kökünü 1987-ci ilin oktyabr ayında Azərbaycanın məşhur Çardaxlı kəndində etnik ermənilərlə milis arasındakı qaşıdurma ilə bağlayırlar. Həmin vaxt Çardaxlı ermənilərinin Azərbaycan qanunlarına qarşı çıxması, ictimai asayişi pozması və kənddə həyatı normallaşdırmağa səy göstərən milisə tabe olmaması süni surətdə rayon miqyaslı qarşıdurma yaratmışdı. Bu olayları milli münaqişə zəmininə çevirən Ermənistan SSR-də etiraz nümayişi başlamış, noyabr ayında isə Mehri və Qafan rayonlarından yerli azərbaycanlıların zorla köçürülməsinə bəhanə edilmişdi. Bu hadisələrdən bir qədər sonra Heydər Əliyev sovet dövlətinin rəhbərliyindən kənarlaşdırılmışdı. Beləliklə, erməni separatçılığının leqallaşması üçün yaşıl işıq yandırılmışdı. Zori Balayan, Silva Kapitukyan və b. bu kimi antiazərbaycan düşüncəli separatçılıq və revanşizm məddahlarının güclü təbliğatının nəticəsi kimi 1989-cu ildə Ermənistanda iki mindən artıq əsgəri olan qanunsuz iki silahlı birləşmə formalaşdırılmışdı: Erməni Müstəqillik Ordusu (rəhbəri bir müddət sonra Dağlıq Qarabağda məhv edilmiş Leonid Azgəldiyan idi) və Erməni Azadlıq Ordusu (rəhbəri Razmik Vasilyan və Vartan Vartanyan idi). Bundan əlavə, Ermənistanda partizan taktikası ilə fəaliyyət göstərən terrorçu dəstələr də formalaşdırılmışdı. Onlar körpüləri dağıdır, hərbi hissələrə qəfil hücumlar təşkil edib, silah-sursat ələ keçirir, hərbçiləri, mülki vətəndaşları girov götürüb ləyaqətsiz alverlər edir, həbsdə olan məsləkdaşları ilə dəyişdirirdilər. Erməniçi jurnalistika bu barədə bəlağətlə yazmaqdan çəkinmirdi. Həmin dövrdə Stepanakertdəki (Xankəndi) mebel fabrikində əldəqayırma tapança və partlayıcı mərmilər üçün üzlük düzəltmək işi də qaydaya salınmışdı. Beləliklə, hadisələr qanunsuz yollarla inkişaf edərək 1988-ci il çaxnaşmalarına gətirib çıxardı: Özbəkistanda ahısqa türklərinə divan tutuldu, Masis və Quqarkda azərbaycanlılar öldürüldü.

SSRİ-də yenidənqurma siyasətinin daha da dərinləşməsi paralel olaraq separatçılıqda subyektiv sərbəstlik yaratmışdı. Qeyri-qanuni silahlı birləşmələrdən problemli məsələlərin həllində dövlət aparatı səviyyəsində də istifadə olunmağa başlanılmışdı. Beləliklə, tənəzzülə uğrayan sovet məkanı üçün dağılmağa yardım edən yeni bir təhdid üsulu formalaşdırılmaqda idi. Mərkəzi Asiyada etnik münaqişələrin baş qaldırması, hətta nisbətən sakit məcrada olan Baltiksahili respublikalarda, Gürcüstanda da quruluşa və milli azlıqlara qarşı şovinist çıxışların səsləndirilməsi artıq xüsusi növ terror üçün (dövlət terroru) münasib şərait yaradırdı. Beləliklə, cinayətkar qrupların silahlı çıxışlarının cəzasız qalması terror aktlarının törədilməsinə anarxist ruhunda mənəvi dəstək verirdi. SSRİ dağılanadək hər iki istiqamətin paralel inkişaf etməsi nəticədə terror üsulu, onun dövlət terroru, həmçinin hibrid müharibə formaları daha səmərəli və genişmiqyaslı vasitə kimi önə keçmişdi.

Azərbaycan öz müstəqilliyini erməni/sovet gizli diplomatiyası, separatçılıq və terrora qarşı mücadilədə qazanmışdır.

Azərbaycandakı 1988-ci ilin 17 noyabr - 5 dekabr tarixli mitinqləri amansızcasına yatırılmışdı. Əvəzində, "Ermənistan SSR" adlandırılmış Qərbi Azərbaycan torpaqlarında əsrlər boyu yaşamış azərbaycanlılara qarşı təxribatlar, hədələyici fitnəkarlıq və qətllər artmış, hər cür qanunsuzluqlara ara vermədən növbəti deportasiya siyasəti gücləndirilmişdir. Oxşar tale yaşayan ahısqa türklərinin də böyük bir hissəsi Özbəkistandan didərgin düşərək Azərbaycana pənah gətirmişdi. Beləliklə, Bakıdakı Meydan hadisələri inkişaf edərək Azərbaycan Milli-Azadlıq Hərəkatına çevrilmişdi. Bu hərəkatın yatırılması, digər respublikalara örnək olub yayılmaması üçün sovet dövlət aparatı müxtəlif terror metodlarını Azərbaycanda tətbiq etməyə başlamışdı.

20 Yanvar 1990-cı ildə törədilən "Qara Yanvar" vəhşəti Azərbaycana qarşı klassik dövlət terrorudur. Bu vəhşətdəki erməni izi Azərbaycanın güc strukturları tərəfindən sübut edilmişdir. Tədqiqat materiallarından o da məlumdur ki, hələ 1988-ci ildə Azərbaycanda qeyri-azərbaycanlıların, xüsusilə də xristian dini mənsublarının şərəf və ləyaqətini qorumaq bəhanəsi ilə SSRİ Müdafiə Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsi çərçivəsində müvafiq dəstələr formalaşdırılmış, bu işə hətta Livandan köçüb gəlmiş ermənilər də cəlb olunmuşdu. Beyrut-İrəvan aviareysi ilə qanunsuz silahlı dəstələr üçün silah-sursat daşınırdı. Keçən əsrin 80-ci illərində gizli fəaliyyət göstərən İqor Muradyan adlı bir erməni şovinisti barədə Tomas de Vall yazır: "O, paralel olaraq başqa bir işlə, faktiki olaraq təxribatla məşğul idi. Qadağan olunmuş radikal-şovinist "Daşnaksütyun" ... partiyasının xaricdəki və Yerevandakı gizli təşkilatları ilə əlaqə yaratmışdı. Hətta silah əldə etməyə başlamışdı. Onun sözlərinə görə, 1986-cı ilin yay aylarında Qarabağ erməniləri daşnakların köməyi ilə xaricdən ilk silahlarını almışdılar. Sonra isə silah alışı müntəzəm olaraq həyata keçirilməyə başlanılmışdır, "nədənsə gələn silahların arasında Çex istehsalı olanlar çoxluq təşkil edirdi". Həmin silahlar əsas etibarilə Dağlıq Qarabağa ötürülürdü. ...Qarabağdakı bütün təşkilatlar silahlanmışdılar. Bütün komsomolçuların şəxsi silahları var idi". (**Bax:** *Томас де Ваал.* Göstərilən əsəri, səh.39.)

Erməni separatçıları və qanunsuz silahlı dəstələri miatsum siyasətinin hökmü ilə Şimali Qafqazdan tutmuş, Ağrı dağının ətəklərinədək olan böyük bir coğrafiyada azərbaycanlılara qarşı milli zəmində yüzlərlə cinayət törətmişdilər. (**Bax: Dağlıq Qarabağ: Hadisələrin xronikası (1988 - 1994-cü illər)** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin nəşri, 2012.) Onlar yol gedən azərbaycanlıların qarşısını kəsib döyür, avtomobilləri saxladıb məhv edir, Bakıya gələn qatarları daşa basır, örüşlərə hücum edib xalqın mal-qarasını oğurlayıb aparır, su kəməri, dəmiryol, telefon xətlərini, körpüləri partladaraq Azərbaycana qarşı fitnələr törədirdilər. Sərnişin avtobuslarını, evləri yandırıb yararsız hala salır, Bakı ərazisinə gizli yolla partlayıcı qurğular keçirib, metroda və s. gur yerlərdə terror aktları törədirdilər. İnsanlığa yaraşmayan bu cür hallara və buna bənzər qanunsuzluqlara qarşı göz yuman, ikili standartlarla Ermənistan - Azərbaycan münaqişəsini erməni himayədarlığı pərdəsi altında ört-basdır etməyə çalışan mərkəzi İttifaq dövlətinin hakim dairələri məsələnin hansı faciəyə istiqamət alacağından hətta ehtiyat da etmirdi. Sanki problemin hər anı nəzarətdə idi və gözəgörünməz əllə idarə olunurdu. Budəfəki erməni xəyanətinə qarşı Azərbaycan aylarla səbirli davrandı, davam edən neodaşnakçılığa qarşı ilk etiraz sədasını ancaq səkkiz ay sonra Bakıda, 1988-ci ilin noyabr ayının 17-də indiki Azadlıq meydanından ucaltdı. Şuşanın əzəmətli Topxana meşəsinin vəhşicəsinə qırılması - ekoloji terror aktı xalqın erməni terrorçuluğuna qarşı səbir kasasını doldurmuşdu. DQ-də uzaq keçmişin milli-mənəvi izlərini yaşadan qədim maddi-mədəni abidələrini işğal etməklə onları ya özününküləşdirmək, yaxud məhv edib elmi dövriyyədən çıxarmaq da həmin riyakar planın - humanitar terrorun tərkib hissəsinə çevrilmişdi.

1991-ci il noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndinin səmasında Azərbaycanın və digər respublikaların yüksək vəzifəli dövlət məmurlarının və hüquq-mühafizə orqanları əməkdaşlarının, jurnalistlərin olduğu vertolyot erməni terrorçularının yerdən açılan atəşilə vurulmuşdu. Bir neçə ay sonra daha bir faciə - Şuşa-Ağdam arası camaatı təhlükəsiz yerə daşıyan mülki vertolyota qarşı terror aktının törədilməsi və içindəki 40 nəfər azərbaycanlının həlak olması Xocalı ilə də hava əlaqəsinə son qoymuşdu. Beləliklə, 1992-ci il fevral ayının 17-də Qaradağlı kəndi, 26-da isə Xocalı Ermənistanın dövlət terrorunun hədəfinə məruz qalmışdır.

Əslində erməni dövlət terrorunun tarixi azərbaycanlıların 1918-ci ilin mart soyqırımından başlamaq daha dəqiq olardı. Çünki həmin vaxtlar Bakıda hakimiyyətdə olan, Azərbaycan xalqını, onun ictimai-siyasi görüşlərini geridəqalmışlıq, qabiliyyətsizlik ruhunda təqdim edən, azərbaycanlılara qarşı patoloji nifrətini hər fürsətdə büruzə verən və bu üslubda məqalə yazan, mitinqlərdə çıxışlar edən S. Şaumyan həmin müdhiş hadisələrdən bircə ay sonra deyirdi: "Bizim şəhərin (azərbaycanlılara qarşı törədilmiş mart soyqırımını yaşayan Bakını nəzərdə tutar. - ***E. C.***) milli tərkibi bizi qorxudurdu. Biz qorxurduq ki, mübarizə arzuolunmaz rəng alsın. Biz hətta erməni polkunun köməyindən istifadə etmək məcburiyyətində qaldıq... Erməni polkunun xidmətindən yararlanmağa məcbur idik, qələbənin dəyəri o qədər böyükdür ki, bizim bu addımımız reallığa (törətdikləri soyqırımına. - ***E. C.***) heç bir kölgə salmır... Vətəndaş müharibəsinin millətçilik rəngi alması labüd idi, həmçinin, Qızıl ordu ilə yanaşı, milli polkların mövcud olması bizi məcbur edirdi ki, onlara qarşı da müharibə edək. Düzdür, biz məcbur olub onlardan da istifadə etdik, çünki bizim müttəfiqlərimiz idilər..." (*Шаумян С. Г.* Статьи и речи (1908 - 1918). Кооперативное издательство "Бакинский рабочий", 1924. стр. 156 - 157.)

Törətdikləri terror cinayətlərinə görə cəzasız qalan erməni dövlət terrorçuluğu sonralar da davam etmişdir. Zaman daha bir müdhiş terror aktını unutmayıb: 1994-cü il mart ayının 17-də Novruz bayramını qeyd etmək üçün İranın Moskvadakı diplomatik korpusunun ailə üzvlərini Tehrana aparan İİR-in "C-130 Hercules" tipli hərbi nəqliyyat təyyarəsi Azərbaycanın Xankəndi hava məkanında məhz Ermənistan silahlı qüvvələri tərəfindən vurulmuşdu. Terakt nəticəsində təyyarədəki 19 sərnişin (qadın və uşaq) və 13 heyət üzvü faciəvi şəkildə həlak olmuşdu.

Müstəqilliyinə yenidən qovuşan Azərbaycan Respublikasına belə bir terrogen situasiya miras qalmışdı.

Erməni terroru tarixən strategiyada sabit, taktikada çevik olmuşdur. İstər çar Rusiyası, istərsə də SSRİ dövründə erməni terrorçuluğu birbaşa "erməni məsələsi"nin strateji maraqlarına xidmət edirdi. Taktikada isə gah anarxist, gah muzdlu qatil, gah da müxtəlif dövlətlərin güc strukturları ilə ittifaqda olan silahlı dəstələr kimi fəaliyyət göstərmişlər. SSRİ dağıldıqdan sonra, müstəqillik dövründə isə erməni terrorunun strateji hədəfi dəyişməsə də ("böyük Ermənistan" qurmaq), taktikalarında köhnə üsullara qayıdış elementləri sezilməyə başlanmışdı. Bu da son vaxtlar erməni terrorunda müəyyən primitivliyi müşahidə etməyə əsas verir. Bunun əsas səbəbi ondadır ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra "erməni məsələsi"nin kontekstində xeyli ictimai-siyasi ədəbiyyat çap edilmiş, erməni terror üsulları Azərbaycan ictimaiyyətinə, o cümlədən güc strukturlarına aydın olmuşdur. Bu fakt, həmçinin müstəqil Azərbaycanın hərbi-siyasi və iqtisadi baxımdan güclənməsi erməni terroruna qarşı qabaqlayıcı tədbirlər hazırlamaq üçün geniş analitik baza və imkanlar cəbhəsi yaratmışdır. Analitik müqayisələr aparmaqla erməni terrorunun təcrübəsi öyrənilmiş, ona qarşı informasiya mübarizəsi gücləndirilmişdir. Məsələn, məlumdur ki, terrorçu erməni düşüncəsində "24 aprel - erməni soyqırımı günü", "28 May", Qurban bayramı, Novruz bayramı, Yeni il gecəsi və s. günlərdə azərbaycanlılara qarşı terror aktları törətmək ənənəsi vardır. Bu üsuldan hazırda Dağlıq Qarabağda qoşunların təmas xəttində erməni silahlıları tərəfindən istifadə edilməkdədir.

Bir fakt. 2015-ci il aprel ayının 19-da ("ermənilərin genosid günü" ərəfəsində) KİV-də belə bir informasiya yayılmışdı: keçmiş azərbaycanlı futbolçu Emil Hüseynov Rusiyanın Yekaterinburq şəhərində kafedə Azərbaycan musiqisi sifariş verib çaldırdığı üçün qonşu masadakı ermənilərdən biri onu münasibətləri həll etmək məqsədilə küçəyə çağırmış və mübahisə qızışmışdı. Hər iki tərəfdən olan digər şəxslər də küçəyə çıxmışdır. Tiqran Cicakyan adlı erməni əlindəki bıçağı Emil Hüseynovun ürəyinə sancmış və qaçmışdır. Müşahidələr göstərir ki, hər il xüsusilə aprel ayında ermənilərin bu tipli terrorçu əməllərə əl atması intensivləşir. Çünki hay tərbiyəsində "türkdən qisas almaq millət qarşısında mənəvi borc" kimi beyinlərə yeridilmişdir.

Milli azlıqların potensialından faydalanmaq məsələsi də terrorşünaslıq üçün yeni deyil. Artıq primitivləşmiş bu metoddan hazırda erməni dövlət terrorunda geniş istifadə edilir. Lakin Azərbaycan psixologiyası və Azərbaycan mühiti üçün tolerantlıq və çoxmədəniyyətlilik dünyagörüşü güclü və sabit olduğu üçün həmin amil Azərbaycanın əleyhinə çevrilməmişdir.

"Milli azlıq" amilindən faydalanmaq istiqamətində Rusiya Erməniləri İttifaqı xüsusi fəallıq göstərməkdədir. RF-də fəaliyyət göstərən erməni əsilli iş adamlarının aylıq 5 faiz ödəmələri hesabına müxtəlif layihələr, o cümlədən terrora dəstək verən həmin təşkilatın başçısı Ara Abramyan (Dağlıq Qarabağdakı separatçı rejimin əsas sponsoru, erməni əsilli iş adamı Levon Ayrapetyan başqa bir cinayət işi üzrə dələduzluq etdiyi üçün 2016-cı ildə Rusiyada 4 il müddətinə həbs olunmuşdur. - ***E.C.***) Dağlıq Qarabağdakı işğal zonasında "Suvorov və Mədətov adına Qarabağ Hərbi Məktəbi"ni yaratmışdır (Ermənistanda bu məktəbin filialı Qarabağda məhv edilmiş ABŞ xüsusi xidmət orqanlarının agenti, terrorçu Monte Melkonyanın adını daşıyır. - ***E.C.***). Bu məsələnin məkrli tərəfi odur ki, məktəbdə etnik ermənilərlə yanaşı, ləzgilər, talışlar, avarlar, saxurlar və b. milli azlıq nümayəndələri də ümumi qaydalar əsasında təhsil ala bilərlər. Ekspertlərin fikrincə, belə bir "hərbi təhsil demokratiyası" Azərbaycanın cənub və şimal zonasında təxribatlar törətmək üçün xüsusi hərbçi vərdişlərə yiyələnmiş dəstələr formalaşdırmaq məqsədi daşıyır. "Azad Talışstan" İctimai Birliyinin bu çağırışa ciddi yanaşması və antiazərbaycan mövqeyi ilə tanınan Fəxrəddin Abbaszadənin belə bir məlum fikri həmin ekspert qənaətini təsdiqləyir: "Mən həmişə demişəm, Ermənistan Qarabağda müdafiə zolağı yaratmaq əvəzinə, pulu Azərbaycanın yerli xalqlarına xərcləməlidir. Belə edərsə, on ildən sonra Azərbaycan olmayacaq. Talışlar isə öz tarixi torpaqlarında ömür sürəcəklər".". (**Bax:** "Государственный терроризм при соучастии Ара Абрамяна. "Союз армян России" патронирует подготовку террористов в Нагорном Карабахе. *http://gulustan.info/2013/05/soyuz-armyan-rossii/*); ВАК: "Призывы Ары Абрамяна противоречат национальной политике России" *http://www.vesti.az/news/288284*

Azərbaycandan kənarda yaradılmış "Sadval", "Meşə qardaşları" ("Dərbənd camaatı", "Cənub qruplaşması" adı ilə də tanınır ) və "Ceyşullah" terror təşkilatları da müstəqilliyin ilk dövründə Azərbaycana qarşı terror aktları təşkil etmişdilər. Məlum olmuşdur ki, "Sadval", Ermənistan dövlətindən silah və maddi dəstək almışdır. Terrorçu təşkilatlar Bakıda keçirilən "Eurovision - 2012" mahnı müsabiqəsi ərəfəsində və keçiriləcəyi zaman paytaxtda, respublikanın ayrı-ayrı rayonlarında müxtəlif terror aksiyalarını törətmək, kütləvi qırğınlar məqsədilə partlayışlar və silahlı basqınlar təşkil etmək planlaşdırmışdı. Həmin terrorçu qruplar Azərbaycanın xüsusi xidmət orqanlarının irimiqyaslı xüsusi əməliyyatları nəticəsində zərərsizləşdirilmişlər.

Ümumiyyətlə, terrorçu qruplar, xüsusilə də erməni dövlət terroru Azərbaycanda yaşayan milli azlıqlardan öz çirkin əməlləri üçün yararlanmaqda həmişə israrlı olmuşdur. Halbuki məlum faktdır: erməni terroru Azərbaycan, Türkiyə, İran, Gürcüstan ərazisində yaşayan kürdlərə, ləzgilərə, avarlara, ruslara, yəhudilərə, talışlara və digərlərinə qarşı da amansız qətliamlar törətməkdən çəkinməmişdir.

***(davamı növbəti saylarımızda)***

**Elçin CABBAROV,**
**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin baş elmi işçisi, filologiya elmləri namizədi.**